# حیدربابا ایله راز و نیاز

1 Heydər Baba, gəldim səni yoxlıyam,
Bir də yatam gucağunda yuxlıyam,
Ömri govam, bəlkə burda haxlıyam,
Uşaqlığa diyəm bizə gəlsin bir,
Aydın günlər ağlar yüzə gülsün bir.

(۱) حیدربابا گلدیم سنی یوخلیام
بیر ده یاتام قوجاغوندا یوخلیام
عمری قوام بلکه بوردا حاخلیام
اوشاقلیغا دیم بیزه گلسن بیر
ایدین گونلر آغلار یوزه گلسن بیر

2 Heydər Baba, çək'dün məni gətirdün,
Yurdumuza yuvamıza yetirdün,
Yusufuvı uşağ ikən itirdün,
Goca Yə'gub, itmişşəm də tapupsan,
Govalıyup gurd ağzınnan gapupsan.

(۲) حیدربابا چکدون منی گتیردون
یوردوموزا، یوامیزا یتیردون
یوسفوی اوشاق ایکن ایتیردون
قوجا یعقوب ایتمیشسمده تاپوپسان
قاوالیوب قورد آغزینان قاپوپسان

3 Gedənlərin yeri burda, görünür,
Xanım Nənəm ağ kəfənin bürünür,
Dalımcadur, hara gedəm sürünür:
Bala gəldün? Niyə belə gej gəldün?
Səbrim sənnən güləşdi sən güj gəldün.

(۳) گدنلرین یری بوردا، گورونور
خانم ننم آغ کفنین بورونور
دالیمجادور، هارا گدیم سورونور
بالا گلدون؟ نیه بله گژ گلدون
صبریم سنن گلشدی سن گوژ گلدون

4 Mən gördüğüm kərvan çatup köçüpdi,
Ayrılığın şərbətini içipdi,
Ömrümüzün köçi burdan geçipdi,
Geçip gedip gedər gəlməz yollara,
Tozı gonup bu daşlara kollara.

(۴) من گوردوگوم کروان چاتوپ کچپدی
آیریلیغن شربتنی ایچیپدی
عمرموزون کچی بوردان گچیپدی
گچیپ گدیپ گدر گلمز یولارا
توزی قونوپ بو داشلارا کولارا

5 Burda şirin xātirələr yatuplar,
Daşlarılan başı başa çatuplar,
Aşnalığın daşın bizdən atuplar,
Mən baxanda gavzanıllar baxıllar,
Bir də yatup yandırıllar yaxıllar.

(۵) بوردا شیرین خاطره لر یاتوپلار
داشلاریلان باشی باشا چاتوپلار
آشنالیغین داشین بیزدن آتوپلار
من باخاندا قاوزایلار باخیلار
بیرده یاتوپ یاندریلار یاخیلار

| | |
|---|---|
| 6 Qəbiləmiz burda gurup ocağı, | (۶) قبیله میز بوردا قوروپ اجاغی |
| İndi olmuş gurd guşlarun yatağı, | ایندی اولموش قورد قوشلارون یاتاغی |
| Gün batanda sönər bütün çırağı, | گون باتاندا سونر بوتون چراغی |
| Və bəldətin ləysə ləhā ənīsü, | و بلدهٔ لیس لها انیس |
| İlla'l-yə'āfīrü və illa'l-'īsü. | الا الیعافیر و الا العیس |
| | |
| 7 Zaman geçir üfüqlərdə toz galır, | (۷) زمان گچیر افق لرده توز قالیر |
| Kərvan kimi uzaqlarda toz salır, | کروان کیمی اوزاقلاردا توز سالیر |
| Duman gəlir yürək'ləri çulgalır, | دومان گلیر یورکلری چولقلیر |
| Yürək' diyir zaman geçmə, aman dur, | یورک دیر زمان کچمه، آمان دور |
| Geçənlərdə gözüm var, bir dayan, dur. | کچنلرده گوزوم وار بیر دایاندور |
| | |
| 8 Rüzigārın dəğirmanı fırlanır, | (۸) روزگارین دگرمانی فیرلانیر |
| Məxlug onun dişlərinə tullanır, | مخلوق اونون دیشلرینه تولانیر |
| Bax ki ginə bəşər neçə allanır, | باخ که گنه بشر نجه آلانیر |
| Həmişə līk şadlıq umur özinə, | همیشه لیک شادلیق اومور اوزینه |
| Qəbri görür, toz gondurmur yüzinə | قبری گورور توز قوندورمور یوزینه |
| | |
| 9 Köhnələrin sür sümüği dartılup, | (۹) کهنه لرین سور سموکی دارتلوپ |
| Gurtulanun çul çuxası yırtılup, | قورتولانون چول چوخاسی یرتلوپ |
| Moll' İbrahim lap əriyüp gurtulup | ملا ابراهیم لاپ اریوب قورتلوپ |
| Şəyxəlislām səhman galup gıbraqdı, | شیخ الاسلام سهمان قالوپ قبراخدی |
| Novruz əli gaçaq geçip goçaqdı. | نوروز علی قاچاق گچیپ قوچاخدی |
| | |
| 10 Ahıllarun yetmiş kəfən çürüdüp, | (۱۰) عاهیلارون یتمش کفن چورودوپ |
| Cahılları dünya qəmi kiridüp, | جاهیلاری دنیا غمی کریدوپ |
| Gız gəlinlər ət canları əridüp, | قیز گلینلر ات جانلاری اریدوپ |
| Rəxşəndənin nəvə dutur əlini, | رخشنده نین نوه دوتور الینی |
| Nənə Gızın kürəkəni, gəlini. | ننه قذین کورکنی گلینی |

| | |
|---|---|
| 11 Çox şükri var, ginə gəldux görüşdux, | (۱۱) چوق شکری وار، گنه گلدوخ گوروشدوخ |
| İtənlərdən bitənlərdən soruşdux, | ایتنلردن بیتنلردن سوروشدوخ |
| Küsmüşdux da Allah goysa barışdux, | کوسموشدوخدا آلله قویسا باریشدوخ |
| Bir də görüş gısmət ola, olmıya, | بیرده گوروش قسمت اولا، اولمیه |
| Ömürlərdə fürsət ola, olmıya. | عمرلرده فرصت اولا، اولمیه |
| 12 Burda xiyal məydanları genişdi, | (۱۲) بوردا خیال میدانلاری گنیشدی |
| Dağlar daşlar bütün mənlə tanışdı, | داغلار داشلار بوتون منله تانیشدی |
| Görcək məni Heydər Baba danışdı: | گورجک منی حیدربابا دانیشدی |
| Bu nə səsdür sən āləmə salupsan, | بو نه سسدر سن عالمه سالوپسان |
| Gəl bir görək', özün harda galupsan | گل بیر گورک اوزون هاردا قالوپسان |
| 13 Kəcāvəylə bu çaydan çox gəçmişik', | (۱۳) کجاویله بو چایدان چوق گچمیشیک |
| Bu çeşmələrdən nə sular içmişik', | بو چشمه لردن نه سولار ایچمیشیک |
| Bu yoncalıqlarda kəsüp biçmişik', | بو یونجالیقلاردا کسوب بیچمیشیک |
| Çəpişləri g ıdıqlıyan günlərim, | چپیشلری قیدیخلیان گونلریم |
| Çəpiş kimi oynaqlıyan günlərim. | چپیش گیمی اویناخلیان گونلریم |
| 14 Bu xərməndə "aradan xəyr" oynardıq, | (۱۴) بو خرمنده آرادان خیر اویناردیخ |
| Cumalaşup garışga tək' gaynardıq, | جومالاشوب قاریشقا تک قایناردیخ |
| Yavaş yavaş baxçalara ağnardıq, | یواش یواش باخچالارا آغناردیخ |
| Ağaçlardan "çəling agaç" kəsərdik', | آغاجلاردان چلینک آغاج کسردیک |
| Goruqcunun gorxusundan əsərdik'. | قوروخجونون قورخوسوندان اسردیک |
| 15 Bu tövlədə sarı inək' doğardı, | (۱۵) بو طوله ده ساری اینک دوغاردی |
| Xanum Nənəm inək'ləri sağardı, | خانم ننم اینکلری ساغاردی |
| Ana iysi dam duvardan yağardı, | آنا ایسی دام دیواردان یاغاردی |
| Mən bizovı gucaqlardım gaşmasın, | من بزوی قوجاقلاردیم قاشماسین |
| Diyərdi bax bayda dolsın daşmasın. | دیردی باخ بایدا دولسین داشماسین |

| | |
|---|---|
| 16 Bu damlarda çoxlı "cızıq" atmışam, | (۱۶) بو داملاردا چوخلی جزیخ آتمشام |
| Uşaqların aşıqların utmışam, | اوشاقلارین آشیقلارین اوتمشام |
| Gurguşumlı səkqa alup satmışam, | قورقوشوملی سقه آلوپ ساتمشام |
| Uşaq necə heç zadınan şad olar, | اوشاق نجه هیچ زادینان شاد اولار |
| İndi bizim qəmi dutmur dünyalar. | ایندی بیزیم غمی دوتمور دنیالار |
| 17 Mək'təb galır, uşaqlar dərs alıllar, | (۱۷) مکتب قالیر اوشاقلار درس آلیلار |
| Həy yazıllar, həy pozıllar, yalıllar, | هی یازیلار هی پوزیلار، یالیلار |
| Moll' İbrahim özi evi galıllar, | ملا ابراهیم اوزی اوی قالیلار |
| Amma bizim yoldaşlardan qalan yox, | آما بیزیم یولداشلاردان قالان یوق |
| Bunlardan bir bizi yada salan yox. | بونلاردان بیر بیزی یادا سالان یوق |
| 18 Bir vəxtində bu mək'təb pərgār idi, | (۱۸) بیر وقتینده بو مکتب پرگار ایدی |
| Bir Müsəyyib, bir Məmdəsən var idi, | بیر مسیب بیر ممدسن وار ایدی |
| Biri xəlfə, biri vərzişkār idi, | بیری خلفه، بیری ورزشکار ایدی |
| Axud bizlə oynamağa gedərdi, | آخود بیزله اویناماغا گدردی |
| Özi bizə oynamağ örgədərdi. | ازی بیزه اویناماق ارگدردی |
| 19 Dedim balam o Məmdəsən nolupdı, | (۱۹) دديم بالام او ممدسن نولوپدی |
| Mə'lum oldı tifil cəvan ölüpdi, | معلوم اولدی طفیل جوان الوپدی |
| Nə var nə var, burnunnan gan gəlüpdi, | نه وار نه وار، بورنونان قان گلوپدی |
| Bir yel əsir baxırsan Məmdəsən yox, | بیر یل اسیر باخیرسان ممدسن یوق |
| Bu kətdə bir burun ganın kəsən yox. | بو کتده بیر بورون قانین کسن یوق |
| 20 Dedim deyün Müsəyyibə nə gəldi, | (۲۰) دیم دیون مسیبه نه گلدی |
| Qulam gördüm ağlar gözilə güldi, | غلام گوردوم آغلار گوزیله گلدی |
| Dedi o da bahalıq düşdi öldi, | دئدی اودا باهالیق دوشدی الدی |
| Dedim yazıq bizlə hasıl bölənlər, | دیم یازیق بیزله حاسل بلنلر |
| Bitimində acılarınnan ölənlər. | بیتمینده آجلاریناں اولنلر |

21 Bu mək'təbdə şə'rin şəhdin dadmışam,
Axundun ağzından gapup udmuşam,
Gāhdan da bir axundı alladmışam,
Başım ağrır diyüp gaçup getmişəm,
Baxçalarda gedüp gözdən itmişəm.

(۲۱) بو مکتبده شعرین شهدین دادمشام
آخوندون آغزیندان قاپوپ اودمشام
گاهداندا بیر آخوندی آلادمشام
باشیم آغریر دیوپ قاچوپ گتمیشم
باخچالاردا گدوب گوزدن ایتمیشم

22 Azad olanda mək'təbdən çıxardıq,
Hücum verüp biribirin sıxardıq,
Yolda hər nə gəldi vurup yıxardıq,
Uşaq demə ipin gırmış dana de,
Bir dana da demə, əlli dana de.

(۲۲) آزاد اولاندا مکتبدن چخاردیخ
هجوم وروپ بیر بیرین سخاردیخ
یولدا هر نه گلدی وروب یخاردیخ
اوشاق دیمه ایپین قرمیش دانا ده
بیر دانادا دیمه اللی دانا ده

23 Məlik' Niyaz itgin gedüp yox olup,
Əmir Aslan sək'tə ilə yıxılup,
Hərə gaçup bir dərədə sıxılup,
Çörək' qəmi çıxup xəlqin ayına,
Hər kəs galup öz canının hayına.

(۲۳) ملک نیاز ایتگین گدوپ یوخ اولوب
امیر اصلان سکته ایله یخلوب
هره قاچوپ بیر دره ده سیخلوب
چورک غمی چیخوپ خلقین آینا
هر کس قالوب اوز جاننین هاینا

24 Kətdi yazıq çıraq tapmır yandıra,
Görüm sizün bərqüz galsın andıra
Kim bu sözi ərbablara gandıra,
Nədür axır bu millətin günahı,
Dutsun sizi görüm məzlumlar ahı.

(۲۴) کتدی یازیق چراغ تاپمیر یاندیرا
گوروم سیزون برقوز قالسین آندرا
کیم بو سوزی اربابلارا قاندرا
نه دور آخر بو ملتین گناهی
دوتسون سیزی گوروم مظلوملار آهی

25 Hər nə alır baha verir gıyməti,
Ucuz fəqət əkinçinün zəhməti,
Bitəndən artıq biçənin ücrəti,
Kənd uşağı gedir yolda işliyə,
Orda bəlkə qəndi tapa dişliyə.

(۲۵) هر نه آلیر باها وریر قیمتی
اوجوز فقط اکینچینون زحمتی
بیتندن آرتیق بیچنون اجرتی
کند اوشاقی گدیر یولدا ایشلیه
اوردا بلکه قندی تاپا دیشلیه

26 Kətdi gəlin kimi dünyanı bəzər,
Öz ovrəti yamaq yamağa düzər,
İğnə bəzər xəlqi özi lüt gəzər,
İndi də var çərşabları albaqdı,
Uşaqlarun qış paçası çılpaqdı.

(۲۶) کتدی گلین کیمی دنیانی بزر
اوز عورتی یاماخ یاماغه دوزر
ایگنه بزر خلقی ازی لوت گزر
ایندیده وار چرشابلاری آلباخدی
اوشاکلارون قیش پاچاسی چلپاخدی

27 Bu baxçada aş tərəsi əkərdik',
Hey su açup kərdiyə göz tikərdik',
Çıxmaq həmin dərip aşa tökərdik',
Fıngılışlar gaşıqlardan aslanı,
Yağlı desəm gurı ağzun ıslanı.

(۲۷) بو باخچادا آش تره سی اکردیک
هی سو آچوپ کردیه گوز تکردیک
چیقماق همین دریپ آشا تکردیک
فینقلشلار قاشیقلاردان آسلانی
یاغلی دیسم قوری آغزون ایسلانی

28 Bu döşlərdə guzıları yayardıq,
Axmasunlar ulduz təkin sayardıq,
Guş govanı çəküp daşa dayardıq,
Guş govan da elə bil ki gabandı,
Gurd uzaqdan diyər bəs ki çobandı.

(۲۸) بو دشلرده قوزیلاری یایاردیخ
آخماسونلار اولدز تکین سایاردیخ
قوش قوانی چکوب داشا دایاردیخ
قوش قوان دا ایله بیل که قاباندی
قورد اوزاقدان دیر بس که چوباندی

29 Xanım Nənəm naxoş olan ilidi,
Gış var ikən küləğidi, yelidi,
Gış da çıxdı yağışidi, selidi,
Yük' yapını hey çatırdux ki gedax,
Sel çımxırup məcburıdux qeyidax.

(۲۹) خانم ننم ناخوش اولان ایلیدی
قیش وار ایکن گولگیدی، یلیدی
قیشدا چیقدی یاغیشیدی سلیدی
یوک یاپنی هی چاتیردوخ که گداخ
سل چیمخروب، مجبوریدوخ قیداخ

30 Neysan düşdi biz də düşduq yağışa,
Kim bacara sellərilə boğuşa,
Hey diyirduq bəlkə yağış yığışa,
Bala Kişi faytunçımız gəlmişdi,
İmamiyyə qəhvəsində galmışdı.

(۳۰) نیسان دوشدی بیزده دوشدوخ یاغیشا
کیم باجارا سیللریله بوغیشا
هی دیردوخ بلکه یاغیش یغیشا
بالا کیشی فایطونچمیز گلمیشدی
امامیه قهوه سنده قالمیشدی

31 Bu zəmidə gedüp gözdən itərdik',
Tongal gurup sütülləri ütərdik',
Deyüp gülmək' muradına yetərdik',
El də gülsün muradına yetişsün,
Yürək'lərin yaraları bitişsün.

(۳۱) بو زمیده گدوپ گوزدن اتردیک
تونقال قوروپ سوتولری اتردیک
دیوپ گولمک مرادینه یتردیک
ایلده گولسون، مرادینه یتشسون
یورکلرین یارالاری بتشسون

32 Xalvarçılar burda xalvar daşırdı,
Bu küllük'dən ulaqlar dırmaşırdı,
Sellər kimi ne'mət aşup daşırdı,
Hər iş diyeydün hər kimə görərdi,
Can dərmanı istiyeydün verərdi.

(۳۲) خلورچیلر بوردا خلور داشیردی
بو کولوکدن الاخلار دیرماشیردی
سلر کیمی، نعمت آشوپ داشیردی
هر ایش دییدون هر کیمه گورردی
جان درمانی ایستییدون وردی

33 İndi bəşər ac gurd təkin uduxup,
Çömbələnti göz gıcırdup duruxup,
Baxıllar ki görsünnər kim sınıxup,
Tökülsünlər onun ləşin yırtsunlar,
Hərə bir diş ənsəsindən gırtsunlar.

(۳۳) ایندی بشر آج قورد تکین اودوخوپ
چمبلنتی، گوز قجردوپ، دوروخوپ
باخیلار که گورسونر کیم سینخوپ
توکولسنلر اونون لشین یرتسونلار
هره بیر دیش انسه سیندن قیرتسونلار

34 Heydər Baba, səndə dəfīnələr var,
Dağlar vədīəsi, xəzīnələr var,
Amma sənə bənzər də sīnələr var,
Bu sīnələr dağlarilə danışur,
Dağlar kimi göylərilə konuşur.

(۳۴) حیدربابا سنده دفینه لر وار
داغلار ودیعه سی، خزینه لر وار
آما سنه بنزرده سینه لر وار
بو سینه لر داغلاریله دانشور
داغلار کیمی گوگلریله قونوشور

35 Gör hardan mən sənə saldım nəfəsi,
Dedim qeytər sal āləmə bu səsi,
Sən də yaxşı sīmurg etdün məgəsi,
San ki ganad verdün yelə, nəsimə,
Hər tərəfdən səs verdilər səsimə.

(۳۵) گور هاردان من سنه سالدیم نفسی
ددیم قیتر سال عالمه بو سسی
سنده یاخشی سیمرغ ایتدون مگسی
سان که قاناد وردون یله نسیمه
هر طرفدن سس وردلر سسیمه

| | |
|---|---|
| 36 Heydər Baba səni vətən bilimişdim, | (۳۶) حیدربابا سنی وطن بیلمیشدیم |
| Vətən deyüp baş götürüp gəlmişdim, | وطن دیوب باش گتوروپ گلمیشدیم |
| Səni görüp göz yaşımı silmişdim, | سنی گوروب گوزیاشیمی سیلمیشدیم |
| Halbuki lap qəmli gurbət səndeymiş, | حال بو کی لاپ غملی غربت سندیمیش |
| Gara zindan, acı şərbət səndeymiş. | قارا زندان، آجی شربت سندیمیش |

| | |
|---|---|
| 37 Kim galdı ki bizə buğun burmadı , | (۳۷) کیم قالدی که بذه بوغون بورمادی |
| Atdan atdan bizə kələk' gurmadı, | آتدان آتدان بزه کلک قورمادی |
| Bir mərd oğul bizə havar durmadı, | بیر مرد اوغول بزه هاوار دورمادی |
| Şəytanları qucaqlıyup gəzdiz siz, | شیطانلاری قوجاقلیوب گزدیز سیز |
| İnsanları əyaqlıyup əzdiz siz. | انسانلاری ایاخلیوب ازدیز سیز |

| | |
|---|---|
| 38 Duvar ucaldı gün bizə düşmədi, | (۳۸) دیوار اوجالدی گون بیزه دوشمدی |
| Zindan garaldı göz gözi seşmədi, | زندان قارالدی گوز گوزی سشمدی |
| Gündüz gözi mənim lampam geşmədi, | گوندوز گوزی منیم لامپام گشمدی |
| Sel də basdı emmiz dolup göl oldı, | سلده باسدی امیز دولوپ گول اولدی |
| Çox yazığın evi çönüp çöl oldı. | چوق یازیغین اوی چونوپ چول اولدی |

| | |
|---|---|
| 39 Əvvəl başı məndən istiqbal etdiz, | (۳۹) اول باشی مندن استقبال ایتدیز |
| Sonnan çönüp işimdə ixlal etdiz, | سونان چونوب ایشیمده اخلال ایتدیز |
| Öz zənnüzcə ustadı iğfal etdiz, | اوز ظنوزجه استادی اغفال ایتدیز |
| Əybi yoxdur, geçər gedər, ömürdür, | عیبی یوقدور کچر گدر عمردور |
| Gış da çıxar, yüzi gara kömürdür. | قیشدا چیخار، یوزی قارا کمردور |

| | |
|---|---|
| 40 Mənim yolum məhəbbət caddəsiydi, | (۴۰) منیم یولوم محبت جاده سیدی |
| Son sözlərim Həqqun irādəsiydi, | سون سوزلریم حقون اراده سیدی |
| Məhəbbətün risālət və'dəsiydi, | محبتون، رسالت وعده سیدی |
| Yoxsa məndə bir kəsilə qərəz yox, | یوقسا منده بیر کسیله قرض یوق |
| Siyāsət adlı məndə bir mərəz yox. | سیاست آدلی منده بیر مرض یوق |

41 Həq nə diyür, küfrə garşı getmeyüz,
Nurdan çıxup zülmat içrə itmeyüz,
Fırıldağa fırfıra tək bitmeyüz,
Gördüz də ki olmadı küfrin dibi,
Pul da versə almağa tikmiş cibi.

(۴۱) حق نه دیور؟ کفره قارشی گتمیوز
نوردان چیقوب ظلمات ایچره ایتمیوز
فریلداغا فرفرا تک بتمیوز
گوردوزده کی اولمادی کفرین دیبی
پولدا ورسه آلماغا تیکمیش جیبی

42 Şeytan bizim qıbləmizi çöndərip,
Allah diyən yoldan bizi döndərip,
İlanlı çeşməyə bizi göndərip,
Minnət goyur ki arxuvuz nəhr olup,
Biz görürük' sular bizə zəhr olup.

(۴۲) شیطان بیزیم قبله میزی چوندریب
الله دین یولدان بیزی دوندریب
ایلانلی چشمه یه بیزی گندریب
منت قویور که آرخوز نهر اولوب
بیز گوروروک سولار بیزه زهر اولوب

43 Heydər Baba, giləylıqdan nə çıxar,
Zülmün evin səbr ü təhəmmül yıxar,
Dərviş olan səbrün əlin bərk' sıxar,
Gəl qeyidaq çıxaq Ağa Düzinə,
Geçaq ginə məhəbbətin sözinə.

(۴۳) حیدربابا گلیلیخ دان نه چیخار
ظالمون اوین صبر و تحمل یخار
درویش اولان صبرون الین برک سیخار
گل قئیداخ چیخاق آقا دوزینه
گچاق گنه محبتون سوزینه

44 Deynə uşaq birbiriylə saz olsun,
Bəlkə bu g ış bir də çönüp yaz olsun,
Çay çimənlər ördək' olsun, gaz olsun,
Biz də baxup fərəhlənüp bir uçaq,
Sınıq salxaq ganadları bir açaq.

(۴۴) دینه اوشاق بیربریله ساز اولسون
بلکه بو قیش بیرده چونوب یاز اولسون
چای چمنلر، اردک اولسون قاز اولسون
بیزده باخوب فرحلنوب بیر اوچاق
سنیق سالخاخ قانادلاری بیر آچاق

45 Bu baxçadan alçaları dərərdik',
Gış adına çıxup damda sərərdik',
Hey də çıxup yalannan çöndərərdik',
Gış zumarın yayda yiyüp doyardıq,
Bir külli də minnət xəlqə goyardıq.

(۴۵) بو باخچادان آلچالاری درردیک
قیش آدینا چیخوب دامدا سرردیک
هی ده چیخوب یالانان چوندرردیک
قیش زومارین یایدا ییوب دویاردیق
بیر کلی ده منت خلقه قویاردیق

46 Evlər galır ev sahibi yox özi,
Ocaqların ancaq işıldır közi,
Gedənlərin az çox galıpdur sözi,
Bizdən də bir söz galacaq, ay aman,
Kimlər bizdən söz salacaq, ay aman.

(۴۶) اولر قالیر اوصاحبی یوخ اوزی
اجاقلارین آنجاق ایشیلدیر گوزی
گدنلرین آز چوخ قالیپدور سوزی
بیزدنده بیر سوز قالاجاق آی آمان
کیملر بیزدن سوز سالاجاق آی آمان

47 Bizdən sora kürsilərin tovında,
Kəndin nağıllarında söz sovında,
Gar'nənənin çaxmağında, govında,
Heydər Baba özin gatar sözlərə,
İşgi kimi xumar verər gözlərə.

(۴۷) بیزدن سورا کورسیلرین توینده
کندین ناغیلاریندا سوز سویندا
قار ننه نین چاخماغیندا قویندا
حیدربابا اوزین قاتار سوزلره
ایشگی کیمی خمار ورر گوزلره

48 Āşıq diyər bir nazlı yar varımış,
Əşqından odlanup yanar varımış,
Bir sazlı sözli Şəhriyar varımış,
Odlar sönüp onun odı sönmiyüp,
Fələk' çönüp onun çərxi çönmiyüp.

(۴۸) عاشیق دیر بیر نازلی یار واریمیش
عشقیندن اودلانوب یانار واریمیش
بیر سازلی، سوزلی شهریار واریمیش
اودلار سونوب اونون اودی سونمیوپ
فلک چونوپ اونون چرخی چونمیوپ

49 Heydər Baba, alçaqlarun köşg olsun,
Bizdən sora galanlara eşq olsun,
Geçmişlərün gələnlərə məşq olsun;
Ovladımız məzhəbini danmasun,
Hər içi boş sözlərə aldanmasun.

(۴۹) حیدربابا آلچاقلارون کشگ اولسون
بیزدن سورا قالانلارا عشق اولسون
کشمشلرون گلنلره مشق اولسون
اولادیمیز مذهبنی دانماسون
هر ایچی بوش سوزلره آلدنماسون